UOT: 327
DOI: https://doi.org/10.30546/25194011.2026.201.2.4.5036

# TÜRKİYƏ-RUSİYA MÜNASİBƏTLƏRİNDƏ QARA DƏNİZ FAKTORU: RƏQABƏT VƏ TƏRƏFDAŞLIQ ARASINDA DƏYİŞƏN DİNAMİKALAR

**GÜNAY GÜLMƏHƏMMƏD QIZI UMAROVA**
*Azərbaycan Turizm və Menecment Universitetinin Humanitar və sosial elmlər kafedrasının doktorantı*
*Bakı ş., Koroğlu Rəhimov küçəsi 822/23*
*E-mail: gnay.umarova@mail.ru*
*ORCİD: https://orcid.org/0000-0002-7402-7981*

## XÜLASƏ

Məqalədə Türkiyə-Rusiya münasibətlərində Qara dəniz faktorunun formalaşdırdığı rəqabət və əməkdaşlıq dinamikaları, eləcə də hər iki dövlətin regiona dair geostrateji yanaşmaları müqayisəli təhlil olunur. Türkiyənin Qara dəniz siyasəti "Strateji Dərinlik" və "Mavi Vətən" konsepsiyaları çərçivəsində formalaşaraq boğazlara nəzarətin qorunması, regional sabitliyin təmin edilməsi, enerji təhlükəsizliyinin möhkəmləndirilməsi və çoxtərəfli təhlükəsizlik mexanizmlərinin dəstəklənməsi istiqamətlərində cəmlənir. Ankara Montrö Konvensiyasını regional balansın və müstəqil diplomatiyanın əsas dayağı kimi görür.

Rusiya isə Qara dənizi özünün tarixi təsir dairəsi və Qərblə geosiyasi qarşıdurmanın mühüm məkanı kimi nəzərdən keçirir. Krımın 2014-cü ildə ilhaqından sonra Moskva regionda hərbi-siyasi mövqelərini A2/AD (anti-access/area denial) imkanlarının genişləndirilməsi, Qara dəniz Donanmasının modernləşdirilməsi və hibrid müharibə alətlərindən istifadə vasitəsilə gücləndirmişdir.

Ukraynada müharibənin davam etdiyi şəraitdə tərəflərin strateji rəqib statusunu qorumasına baxmayaraq, qarşılıqlı asılılıq, sektoral əməkdaşlıq imkanları və praqmatik balanslaşdırma yanaşmaları iki ölkə arasındakı münasibətlərin nisbətən dayanıqlı qalmasına şərait yaradır.

**Açar sözlər:** *Qara dəniz, Türkiyə, Rusiya, rəqabət, əməkdaşlıq.*

## Giriş

XXI əsrin ikinci onilliyindən etibarən Qara dəniz regionu beynəlxalq münasibətlər sistemində geosiyasi rəqabətin əsas məkanlarından birinə çevrilmişdir. Xüsusilə 2008-ci il Rusiya–Gürcüstan müharibəsi, 2014-cü ildə Krımın Rusiya tərəfindən ilhaqı və 2022-ci ildən davam edən Rusiya-Ukrayna müharibəsi regionun təhlükəsizlik arxitekturasında ciddi transformasiyalara səbəb olmuşdur. Bu proseslər Qara dənizin yalnız regional deyil, həm də Avro-Atlantik təhlükəsizlik sisteminin mühüm komponenti kimi əhəmiyyətini artırmışdır. Regionda formalaşan yeni geosiyasi dinamika Qara dənizə çıxışı olan dövlətlərin xarici siyasət prioritetlərinə, təhlükəsizlik strategiyalarına və qarşılıqlı münasibətlərinə birbaşa təsir göstərir.

Bu kontekstdə Türkiyə və Rusiya Qara dəniz hövzəsində strateji maraqları ən çox toqquşan və eyni zamanda əməkdaşlıq imkanlarını qorumağa çalışan əsas regional aktorlar kimi çıxış edirlər. Hər iki dövlət Qara dənizi milli təhlükəsizlik mühitinin ayrılmaz hissəsi hesab edir və regionda baş verən siyasi-hərbi dəyişiklikləri öz geosiyasi maraqları prizmasından qiymətləndirir. Türkiyə üçün Qara dəniz boğazlara nəzarət, regional sabitliyin qorunması, enerji təhlükəsizliyi və NATO çərçivəsində təhlükəsizlik öhdəlikləri baxımından strateji əhəmiyyət daşıyır. Rusiya üçün isə region postsovet məkanında təsir imkanlarının saxlanılması, NATO-nun genişlənməsinin məhdudlaşdırılması və hərbi-strateji üstünlüyün qorunması ilə əlaqələndirilir.

Türkiyə-Rusiya münasibətlərinin spesifik xüsusiyyəti rəqabət və əməkdaşlıq elementlərinin paralel şəkildə mövcudluğudur. Tərəflər arasında enerji, ticarət və regional təhlükəsizlik sahələrində əməkdaşlıq davam etsə də, Ukrayna, Krım, NATO-nun Qara dənizdə fəaliyyəti və regional güc balansı kimi məsələlər münasibətlərdə strateji ziddiyyətləri qoruyub saxlayır. Bu baxımdan Qara dəniz faktoru Ankara-Moskva münasibətlərinin həm məhdudlaşdırıcı, həm də tənzimləyici komponentlərindən biri kimi çıxış edir.

Tədqiqatın əsas məqsədi Türkiyə və Rusiyanın Qara dəniz strategiyalarını müqayisəli şəkildə təhlil etmək, tərəflərin regional təhlükəsizlik siyasətinin əsas istiqamətlərini müəyyənləşdirmək və Qara dəniz faktorunun ikitərəfli münasibətlərə təsirini araşdırmaqdan ibarətdir. Məqalədə Türkiyənin balanslaşdırma siyasəti, Montrö Konvensiyasına yanaşması və regional təhlükəsizlik təşəbbüsləri, həmçinin Rusiyanın hərbi-strateji prioritetləri, NATO-ya qarşı siyasəti və Qara dənizdə güc proyeksiyası imkanları nəzərdən keçirilir. Bununla yanaşı, dəyişən regional təhlükəsizlik mühitində Ankara-Moskva münasibətlərinin perspektivləri də qiymətləndirilir.

**Türkiyənin Qara Dəniz Strategiyası**

Türkiyənin Qara dəniz regionundakı geosiyasi mövqeyi uzun müddətdir Bosfor və Dardanel boğazlarının strateji əhəmiyyəti, Krımla tarixi bağları, eləcə də regional təhlükəsizlik və enerji konfiqurasiyasında aparıcı aktor kimi mövqeyi vasitəsilə formalaşmışdır. Müasir beynəlxalq sistemdə Ankara Rusiya, ABŞ və Avropa İttifaqı kimi əsas güc mərkəzləri arasında balansı qorumağa çalışmaqla yanaşı, öz milli maraqlarını da təmin etməyə çalışır.

Türkiyənin Qara dəniz siyasətinin intellektual əsaslarından birini Əhməd Davudoğlunun "Strateji Dərinlik" konsepsiyası təşkil edir. Bu konsepsiyaya görə, Türkiyənin tarixi təcrübəsi, coğrafi mövqeyi və geosivilizasion irsi ölkəyə xüsusi strateji manevr imkanları yaradır. Digər tərəfdən, son illərdə xüsusi önəm qazanan "Mavi Vətən" doktrinası Türkiyənin dənizlərdə təsir dairəsini genişləndirmək, dəniz səlahiyyətlərini gücləndirmək və dəniz təhlükəsizliyini təmin etmək kimi hədəflərini müəyyənləşdirir.

Türkiyənin Bosfor və Dardanel boğazlarına nəzarəti ölkəyə Qara dənizlə Aralıq dənizi arasında keçidi tənzimləmək imkanı verir ki, bu da həm geostrateji, həm də təhlükəsizlik baxımından mühüm üstünlükdür. Mərmərə dənizi hövzəsi isə ölkənin strateji nüvəsini formalaşdıraraq, şərqdən qaynaqlanan potensial təhlükələr qarşısında təbii müdafiə dərinliyi yaradır [17, s.16].

Türkiyə tarixən öz regionunda mühüm aktor kimi çıxış etmiş və regional təhlükəsizlik mühitində əhəmiyyətli təsir gücünə malik olmuşdur. Global Firepower saytının yekun qiymətləndirməsinə görə, Türkiyə dünya üzrə 8-ci, regional miqyasda 1-ci hərbi güc olaraq qiymətləndirilir. NATO-da ikinci ən böyük hərbi güc olan Türkiyənin 775,000 nəfərlik silahlı qüvvələrinə 2,229 tank, 3,584 artilleriya sistemi, 942 təyyarə və 92 gəmi daxildir [11]. Son illərdə ölkənin təhlükəsizlik siyasəti yalnız müdafiə yönümlü yanaşmadan uzaqlaşaraq regional təhlükəsizlik mühitinə təsir göstərən daha aktiv modelə keçid etmişdir. Türkiyə ATƏT və NATO çərçivəsində regional təhlükəsizlik təşəbbüslərində iştirak etmiş, xüsusilə terrorizm, miqrasiya və regional sabitlik məsələlərində fəaliyyət göstərmişdir [32, s.19].

"Soyuq müharibə"dən sonrakı dövrdə Ankara Qara dənizdə çoxtərəfli əməkdaşlıq təşəbbüslərini dəstəkləyərək regionun təhlükəsizlik arxitekturasının qurulmasına töhfə vermişdir. Lakin 2008-ci il Rusiya-Gürcüstan müharibəsi və 2014-cü ildə Krımın anneksiyasından sonra regional güc balansında baş verən dəyişikliklər Türkiyənin Qara dəniz siyasətini yenidən prioritetləşdirilməsinə səbəb olmuşdur [13, s.100]. Türkiyənin "Soyuq müharibə" sonrası böyük zəhmətlə formalaşdırdığı Qara Dəniz regional təhlükəsizlik arxitekturası bu illərdə ciddi zəifləmə mərhələsinə daxil olmuş, ən son və qəti zərbə isə Rusiyanın Ukraynaya qarşı hərbi müdaxiləsi ilə vurulmuşdur.

Beləliklə, hazırkı geosiyasi şəraitdə Türkiyənin Qara Dəniz strategiyasının əsas məqsəd və vəzifələri aşağıdakı istiqamətlər üzrə ümumiləşdirilə bilər:

- Regional sülh və sabitliyin təmin edilməsi. Türkiyə regionda gərginliyin azaldılması, silahsızlanmanın təşviqi, etimadın möhkəmləndirilməsi və çoxtərəfli əməkdaşlıq mexanizmlərinin gücləndirilməsinə xüsusi önəm verir. Bu yanaşma xüsusilə 2000-ci ildə nəşr olunan Müdafiə üzrə Ağ Kitabda vurğulanmış, Qara dəniz hövzəsinin "sülh, sabitlik və rifah dənizi"nə çevrilməsi strateji hədəf kimi müəyyən edilmişdir [37].

- Regional iqtisadi və humanitar əməkdaşlığın genişləndirilməsi. Mədəni, iqtisadi və dövlətlərarası əlaqələrin inkişafı Türkiyənin Qara dəniz siyasətində vacib istiqamət olaraq qalır. Bu çərçivədə Ankara Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) kimi platformalarda fəal rol oynayır.

-Enerji təhlükəsizliyinin təmin edilməsi. Qara dəniz və Şərqi Aralıq dənizi hövzəsində təbii qaz yataqlarının kəşfi Türkiyənin enerji strategiyasının regional komponentini daha da gücləndirmişdir. Beləliklə, enerji marşrutlarının şaxələndirilməsi və təhlükəsizliyinin təmin olunması ölkənin əsas prioritetlərindən biri kimi çıxış edir [17,s.7].

- Regional təhlükəsizlik təşəbbüslərinin dəstəklənməsi. "BLACKSEAFOR", "Operation Black Sea Harmony" (Qara Dəniz Harmoniya Əməliyyatı) kimi formatlar və digər çoxtərəfli təhlükəsizlik mexanizmləri Türkiyənin regional təhlükəsizlik arxitekturasında koordinator rolunu gücləndirir [1,s.561].

Bu kontekstdə Türkiyənin Qara dəniz siyasətinin əsas sütunlarından birini Montrö Boğazlar Konvensiyasının qorunub saxlanılması təşkil edir. Konvensiya Türkiyəyə boğazlar üzərində suveren nəzarəti təmin etməklə yanaşı, qeyri-regional hərbi varlığın məhdudlaşdırılması yolu ilə Qara dənizdə güc balansını sabit saxlayır [1,s.557]. 1936-cı ildə imzalanaraq bu günədək qüvvədə olan Montrö Boğazlar Konvensiyası ticarət və hərbi gəmilərin, eləcə də təyyarələrin Türk boğazlarından keçid qaydalarını müəyyənləşdirən mühüm beynəlxalq hüquqi sənəddir. Montrö rejimi sayəsində Türkiyə Qara dənizə giriş və çıxışa nəzarəti əlində saxlayır. 2008-ci ildə Rusiya-Gürcüstan müharibəsindən sonra ABŞ-nin

Gürcüstana hərbi gəmilər göndərmək niyyətinə Ankara, Konvensiyanın şərtlərinə əsaslanaraq məhdudiyyətlər tətbiq etmişdir. 2014-cü il Krım böhranı zamanı isə Rusiya tərəfinin NATO-nun hərbi varlığı ilə bağlı narahatlıqlarına cavab olaraq Türkiyə keçidlərin Montrö müddəalarına uyğun həyata keçirildiyini bəyan etmişdir [15, s.76].

Rusiya-Ukrayna müharibəsinin davam etdiyi mürəkkəb geosiyasi şəraitdə də Ankara Montrö Konvensiyasının müddəalarını ardıcıl və ciddi şəkildə tətbiq etməkdədir. Bu mövqe, 28 fevral 2022-ci ildə – müharibənin başlamasından cəmi dörd gün sonra – Türkiyənin Konvensiyanın 19-cu maddəsinə istinad edərək hərbi gəmilərin Boğazlardan keçidinə icazə verilməyəcəyini açıqlaması ilə praktik müstəvidə özünü göstərmişdir [26].

Montrö Boğazlar Konvensiyasının təmin etdiyi strateji üstünlüklər nəticəsində Türkiyə Rusiya ilə Qərb arasında mövcud olan mürəkkəb və gərgin geosiyasi konfiqurasiya fonunda balanslı və müstəqil diplomatiya yürütməyi bacaran nadir aktorlardan biri kimi çıxış edir. Tədqiqatçı Mehmet Dinçer bu siyasəti "strateji balanslaşdırma" kimi xarakterizə etmiş və bu çərçivədə Türkiyənin sözügedən konvensiyanı xarici siyasət aləti kimi səmərəli şəkildə istifadə etdiyini vurğulamışdır [3,s.64].

Beynəlxalq təhlükəsizlik, hərbi məsələlər və geopolitika üzrə dünyanın ən nüfuzlu beyin mərkəzlərindən biri hesab olunan Beynəlxalq Strateji Araşdırmalar İnstitutu (The International Institute for Strategic Studies-IISS) tərəfindən hazırlanmış hesabatda mövcud geosiyasi reallıqlar fonunda Türkiyənin seçə biləcəyi beş mümkün xarici siyasət istiqaməti müəyyənləşdirilir. Bu istiqamətlər aşağıdakı kimi kateqoriyalaşdırılır: "İsolationist" (İzolyasionist), "New Horizons" (Yeni Üfüqlər), "Shifting Course" (Kurs Dəyişimi), "Hedging" (Sığortalama və ya balanslaşdırma) və "A Return to the West" (Qərbə Qayıdış) [30,s.6].

Xüsusilə Ankaranın Qara dənizə yönəlik siyasətində "hedging" – yəni balanslaşdırılmış, çevik və riskləri sığortalayan strategiya mühüm yer tutur. Bu istiqamət Türkiyənin Rusiya və Qərb arasında tam tərəf seçmədən, müxtəlif aktorlarla paralel münasibətlər quraraq strateji muxtariyyətini qoruması kimi xarakterizə edilir. Bu siyasət Ankaraya həm beynəlxalq sistemdəki qeyri-müəyyənlik şəraitinə adaptasiya olmaq, həm də regionda öz təsir imkanlarını maksimum dərəcədə saxlamaq imkanı yaradır.

**Rusiyanın Qara Dəniz Strategiyası**

Rusiyanın Qara dənizlə bağlı strateji yanaşması uzunmüddətli tarixi qarşıdurmalar, Avropanın aparıcı gücləri ilə rəqabət və Türkiyə ilə davam edən geosiyasi çəkişmələrin təsiri altında formalaşmışdır. Kreml üçün prioritet məsələlərdən biri NATO daxilindəki birliyi zəiflətmək və xüsusilə Ukrayna ilə Gürcüstanın Alyansa üzvlüyünün qarşısını almaqdır. Bu məqsəd Moskvanın regionda həyata keçirdiyi hərbi-siyasi strategiyalarda aydın şəkildə özünü göstərir.

Qara dəniz Moskva üçün yalnız Şərqi Avropa və Cənubi Qafqazda təsir imkanlarını genişləndirmək baxımından deyil, həm də Qərbin hegemonluğuna qarşı geosiyasi mübarizənin əsas məkanlarından biri kimi strateji əhəmiyyət daşıyır [35]. Region Rusiyanın beynəlxalq nizamın transformasiyası ilə bağlı iddialarının və özünü qlobal "sivilizasiya mərkəzlərindən biri" kimi təqdim etmək cəhdlərinin mərkəzində dayanır. Moskva üçün Qara dəniz həm normativ, həm də geosiyasi revizionizmin ən açıq şəkildə həyata keçirildiyi platformaya çevrilmişdir [20].

Xüsusilə Krımın ilhaqından sonra Qara dəniz Rusiya üçün yalnız müdafiə məkanı deyil, həm də Gürcüstan, Ukrayna və hətta Yaxın Şərq, o cümlədən Suriya istiqamətində hərbi-siyasi təsir imkanlarını genişləndirən strateji bir dayaq nöqtəsinə çevrilmişdir. Qara dənizə nəzarət eyni zamanda Azov dənizi üzərində tam üstünlük deməkdir [6,s.152]. Başqa sözlə, Rusiyanın Qara dəniz və Ukraynaya verdiyi strateji əhəmiyyət Krımın ilhaqı, Qara dənizdə hegemon mövqeyə sahib olma cəhdləri, Kerç boğazında inşa edilmiş körpü və Azov dənizinə tam nəzarətin təmin edilməsi vasitəsilə daha aydın görünür. Bundan əlavə, Volqa-Don kanalı vasitəsilə donanmanın Xəzər dənizi arasında çevik şəkildə manevr edə bilməsi Moskvanın bu məkanındakı mövqelərini gücləndirən mühüm texniki-strateji imkan yaratmışdır [6, s.159].

Tarixi perspektivdən, Rusiya Qara dənizi hələ çar dönəmindən etibarən "özünə məxsus" geosiyasi areal kimi qəbul etmişdir. Türkiyəli tədqiqatçıların fikrincə, bu iddia yalnız imperiya dövrü ilə məhdudlaşmır, postimperiya mərhələsində də siyasi düşüncənin davamlı elementinə çevrilmişdir. Bu bölgədə Rusiyanın nəzarətindən kənarda baş verən istənilən proses Moskva tərəfindən milli təhlükəsizliyə yönəlmiş birbaşa təhdid forması kimi qiymətləndirilir [2,s.149-150].

Vaşinqtonda fəaliyyət göstərən Avropa Siyasəti Təhlili Mərkəzinin (Center for European Policy Analysis -CEPA) ekspertləri tərəfindən dərc edilən araşdırmada da qeyd olunur ki, Qara dəniz regionu Rusiya rəhbərliyinin bir neçə strateji hədəfini özündə birləşdirir. Müəlliflərin yanaşmasına əsasən, "yaxın

xaric" Moskva üçün coğrafi təhlükəsizlik buferi funksiyasını yerinə yetirdiyi halda, Qara dəniz regionu bilavasitə "ön cəbhə xətti" kimi qəbul edilir [25].

Qara dəniz regionunun Rusiya üçün əhəmiyyəti təkcə hərbi-strateji və geosiyasi aspektlərlə məhdudlaşmır. Region zəngin enerji ehtiyatlarına malik olmaqla yanaşı, Asiya və Avropadakı əsas istehlak bazarlarına çıxış imkanı ilə də fərqlənir. Həmçinin, geniş tranzit şəbəkəsi Rusiyaya beynəlxalq arenada mövqelərini möhkəmləndirmək üçün əlavə imkanlar yaradır.

Moskvanın xarici siyasətində əsas məqsəd enerji diplomatiyasından alət kimi istifadə etməklə postsovet məkanında təsirini bərpa etmək və həmin dövlətlərin Qərblə artan əlaqələrini zəiflətməkdir [31].

Ümumi təhlil Rusiyanın Qara dəniz strategiyasının üç əsas prioritet əsasında formalaşdığını göstərir:

1.Qara dənizdə siyasi-hərbi üstünlük əldə etmək. Moskva regionu Qərb təsirinə qarşı geosiyasi mübarizənin əsas məkanı kimi qiymətləndirir və bu kontekstdə hərbi-siyasi dominantlıq yaratmağa çalışır. Bu siyasətin məqsədi bölgə dövlətlərinin Rusiyanın maraqlarına açıq şəkildə zidd mövqelər tutmasının qarşısını almaqdır [21,s.2].

2.Türkiyə ilə münasibətlərin idarə olunması. Strateji mövqeyi və Qərblə Moskva arasında balans siyasəti səbəbindən Türkiyə Rusiya üçün mürəkkəb tərəfdaşdır. Ankaranın təhlükəsizlik və xarici siyasət məsələlərində Qərblə yaxınlaşması bu dinamikanı daha da həssas edir.

3. Regionda formalaşan yeni çoxtərəfli düzənə uyğunlaşma. Bu, qeyri-Qərb aktorlarla rəqabətli əməkdaşlıq, eləcə də Xəzər və Şərqi Aralıq dənizi kimi digər strateji məkanlarla əlaqələrin gücləndirilməsi vasitəsilə təsir dairəsinin genişləndirilməsini əhatə edir [34,s.6].

Moskva Qara dənizdə üstünlük əldə etmək üçün hibrid və konvensional vasitələri birləşdirən çoxşaxəli təsir strategiyasından istifadə edir. Krımın ilhaqı və şərqi Ukraynada aparılan elan edilməmiş müharibə hibrid müharibənin Rusiya üçün yeni döyüş forması və xarici siyasətin mühüm komponentinə çevrildiyini göstərmişdir. Postsovet məkanında etnik və siyasi gərginliklərin alətə çevrilməsi, "dondurulmuş münaqişələrin" yaradılması və saxlanılması Moskvanın regiondakı təsirini genişləndirməyə xidmət etmişdir [33]. Bu münaqişələr vasitəsilə Rusiya öz hərbi təsir imkanlarını gücləndirmiş, qonşu dövlətlərin Avro-Atlantik məkana inteqrasiyasını ləngitmiş və regionda özünün dominant mövqeyini möhkəmləndirmişdir [28]. Bu siyasət, həm də, regionda mövcud status-kvonun qorunmasına və Moskvanın vasitəçi rolunu legitimləşdirməsinə xidmət etmişdir [34,s.12].

NATO-nun Qara dəniz regionu ölkələrini öz sıralarına daxil etməklə genişlənməsinə cavab olaraq Rusiyanın bölgədə həyata keçirdiyi siyasət daha məqsədyönlü və aqressiv xarakter almışdır. Region üzərində dominant mövqeyini qorumaq məqsədilə Rusiya A2/AD (Anti-Access/Area Denial) zonaları formalaşdıraraq hərbi qüvvələrini gücləndirməyə yönəlmişdir. Bu proses Qara dəniz Donanmasının modernləşdirilməsi və Krım yarımadasında yerləşdirilən hərbi qüvvələrin sayının artırılması ilə müşayiət olunmuşdur. Rusiyanın Qara dənizdə mövqelərinin möhkəmlənməsi onun digər regionlara, xüsusilə Aralıq dənizi istiqamətində güc proyeksiya etmək imkanlarını da genişləndirmişdir. Bu səbəbdən Qara dənizin regional əhəmiyyətindən əlavə, Qara dəniz Donanmasının gücləndirilməsi Yaxın Şərq və Şimali Afrikada təhlükəsizlik məsələləri ilə də bilavasitə əlaqəlidir [29, s.3].

Rusiya ekspertlərinin qiymətləndirmələrinə əsasən, Qara dəniz Donanmasının ümumi tonnajının təqribən 90 faizi Krım yarımadasındakı limanlarda cəmləşmişdir: bunun 80 faizi Sevastopolda, 9 faizi isə Feodosiyada yerləşir. Donanmanın xidməti təminatı əsasən Krım, Novorossiysk, Temryuk (Rusiyanın Azov dənizindəki yeganə hərbi-dəniz bazası), eləcə də Abxaziyanın Oçamçirə və Qudauta bölgələrində dislokasiya olunmuş hərbi kontingentlər tərəfindən həyata keçirilir [9,s.33-34]. Krımın 2014-cü ildə Rusiya tərəfindən ilhaqından sonra bölgədə strateji və operativ obyektlərin müdafiəsi gücləndirilmiş, hava hücumundan müdafiə zonasının əhatə dairəsi 400 kilometrədək genişləndirilmişdir. Bundan əlavə, Krıma 350 km uçuş məsafəsinə malik "Oniks" səsdən sürətli gəmiəleyhinə raketlərlə təchiz olunmuş "Bastion" kompleksləri, həmçinin 120 km uçuş məsafəsinə malik səsdən aşağı sürətli "Bal" raket kompleksləri yerləşdirilmişdir. Bu raket sistemlərinin yeni dislokasiya məntəqələri (əvvəlki yerləşmə yeri – Krasnodar ilə müqayisədə) Qara dənizin şərq hissəsindən başlayaraq demək olar ki, bütün regionun hava və dəniz məkanını nəzarət altına almağa imkan yaratmışdır [36].

31 iyul 2022-ci il tarixli Prezident Fərmanı ilə təsdiq olunmuş Rusiya Hərbi-Dəniz Doktrinasının yeni redaksiyasında Qara dəniz xüsusi strateji məkan kimi qeyd olunmuşdur. Həmin sənəddə vurğulanır ki, Rusiyanın milli maraqları baxımından prioritet hesab edilən akvatoriyalar sırasında Arktika, Qara dəniz, Oxotsk və Berinq dənizləri, Baltik dənizi və Kuril boğazları xüsusi qorunacaq ərazilər

kimi müəyyənləşdirilmişdir. Qara dəniz kontekstində sənəddə NATO-nun genişlənməsi ilə bağlı narahatlıqlar Rusiya-NATO münasibətlərində əsas müəyyənedici faktor kimi qiymətləndirilmiş, həmçinin Qara və Azov dənizlərində Rusiyanın geosiyasi mövqelərinin hərtərəfli möhkəmləndirilməsinin zəruriliyi xüsusi olaraq qeyd edilmişdir [10].

2008-ci ildən etibarən Rusiya öz xarici siyasət alətləri arsenalına açıq və konvensional hərbi əməliyyatları da daxil etməklə regional münaqişələri yeni mərhələyə yüksəltdi. Bu yanaşmanın ilk nümunəsi Gürcüstan hadisələrində müşahidə olundu; Moskvanın eskalasiyası nəticəsində münaqişə dövlətlərarası müharibə xarakteri aldı. Eyni strateji model daha sonra Ukraynaya qarşı tətbiq edildi. Əvvəlcə Krım yarımadasının ilhaqı və Şərqi Ukraynadakı silahlı qarşıdurma ilə başlayan proses 2022-ci ildə tammiqyaslı işğala çevrildi [34, s.13].

Rusiya-Türkiyə münasibətlərinin idarə olunması bu kontekstdə xüsusi əhəmiyyət daşıyır. Tərəflər arasındakı qarşılıqlı münasibətlər rəqabət və əməkdaşlığın paralel mövcud olduğu “co-opetition” modeli ilə xarakterizə olunur. Krımın ilhaqından və sonrakı mərhələdə Türkiyənin Qərb sanksiyalarına qoşulmaması və Moskva ilə iqtisadi əlaqələri genişləndirməsi bu münasibətlərin mürəkkəb xarakterini daha da dərinləşdirmişdir [14]. Bu amil Qara dəniz regionunda güc balansının dəyişməsinə, eyni zamanda Rusiya-Türkiyə münasibətlərinin Qərb-Şərq geosiyasi xəttindəki yerinə dair yeni elmi müzakirələrin yaranmasına təkan vermişdir.

Qara dənizin cənub sahilində yerləşən və regiona tam nəzarət imkanına malik dövlət kimi Türkiyə regional təhlükəsizlik, enerji marşrutları, dəniz ticarətinin müdafiəsi və NATO-nun cənub-şərq cinahının təhlükəsizliyi baxımından strateji rol oynayır. Bu xüsusiyyətlər Ankaranı Moskva üçün eyni zamanda həm zəruri tərəfdaş, həm də geosiyasi rəqibə çevirir.

### Türkiyə-Rusiya Münasibətlərində Qara Dəniz Faktoru

Tarixi kontekstdə Türkiyə və Rusiya arasındakı geosiyasi rəqabətin əsas mərkəzlərindən biri geniş Qara dəniz hövzəsi olmuşdur. XVIII əsrdən başlayaraq Rusiyanın regionda əldə etdiyi strateji nailiyyətlər iki dövlət arasında imperiya dövründən miras qalan qarşıdurma yaddaşının formalaşmasına səbəb olmuşdur. Bu tarixi rəqabət dinamikası müasir dövrdə də müxtəlif intensivliklə davam edir. Həm Rusiya, həm də Türkiyə Qara dənizi özlərinin milli təhlükəsizlik məkanı kimi qəbul edirlər. Regionun strateji mahiyyəti bu iki dövlətin xarici siyasətində xüsusi çəkisi olan istiqamət kimi çıxış edir.

2014-cü ilə, yəni Krımın Rusiya tərəfindən ilhaqına qədər, Ankara NATO-nun Qara dənizdə genişlənməsi və hərbi mövcudluğunun artırılması təşəbbüslərinə ehtiyatla yanaşmışdır. Bu dövrdə Türkiyə, Moskva ilə koordinasiyalı şəkildə, sahilyanı olmayan güclərin bölgədə hərbi varlığının məhdudlaşdırılmasını dəstəkləmişdir. Lakin Krımın ilhaqı regiondakı təhlükəsizlik arxitekturasını dəyişmiş, Ankara ilə Moskva arasında münasibətlərin gərginləşməsinə gətirib çıxarmışdır. Bununla belə, tərəflər qarşılıqlı “qırmızı xətləri” tanımaqla birbaşa hərbi qarşıdurmadan yayınmış və Türkiyə öz balanslaşdırma siyasətini davam etdirmişdir [22]. Məhz bu kontekstdə 2016-cı ildə Rusiya hərbi rəhbərliyinin Qara dənizdə üstün mövqelərini açıq bəyan etməsi, eləcə də Prezident Rəcəb Tayyib Ərdoğanın regionun “Rusiya gölünə çevrilməsi” ilə bağlı ifadələri NATO-nun bölgədə rolunun artırılmasına dair müzakirələri gücləndirmişdir [16,s.4].

Elə həmin il baş tutan çevriliş cəhdindən sonra Qərbin tənqidi və soyuq münasibəti fonunda Moskvanın Türkiyəyə göstərdiyi siyasi dəstək iki ölkə arasında yeni mərhələnin əsasını qoydu. Bu mərhələ qarşılıqlı asılılıq elementləri ilə müşayiət edilən rəqabət və əməkdaşlıq sintezini ifadə edir. Hazırda Rusiya-Türkiyə münasibətləri “nə tam dost, nə də tam rəqib” modelinə uyğun xarakterizə olunur. Qara dənizdə açıq hərbi qarşıdurmanın qeydə alınmamasına baxmayaraq, region strateji rəqabətin davam etdiyi həssas geosiyasi məkan olaraq qalır [19]. Hər iki tərəf, ortaq tarixlərindəki əsrlərlə davam edən rəqabət və müharibələrin fərqindədir, lakin bu reallıq ikitərəfli münasibətlərdə daha çox faydalı təcrübə rolunu oynayır [38].

Rusiya Prezidenti Vladimir Putin 2022-ci ildə Valday Klubundakı çıxışında Türkiyəni və onun siyasi liderliyini “asan tərəfdaş” kimi qəbul etmədiyini, lakin uzunmüddətli və mürəkkəb danışıqlara baxmayaraq qarşılıqlı siyasi iradənin əməkdaşlığı mümkün etdiyini vurğulamışdır. Putinin Ərdoğanı “məsuliyyətli və ardıcıl tərəfdaş” kimi dəyərləndirməsi münasibətlərin praqmatik xarakterini göstərir [7].

Qara dənizdə Rusiya-Türkiyə münasibətlərinin ən mühüm elementlərindən biri regionda qeyri-littoral dövlətlərin genişmiqyaslı hərbi-dəniz iştirakının məhdudlaşdırılması barədə ortaq mövqedir. “Soyuq müharibə”dən sonra formalaşan həssas tarazlıq Türkiyə üçün strateji əhəmiyyət kəsb etmiş, Montrö Konvensiyasına sadiqlik Ankaranın bölgə siyasətinin əsas dayağına çevrilmişdir. Hətta Rusiya 2022-ci ildə Ukraynaya qarşı genişmiqyaslı müharibəyə baş-

ladıqdan sonra belə, Türkiyə Konvensiyanın müddəalarını sərt şəkildə tətbiq etməyə davam etmişdir [12]. Bu hüquqi çərçivə NATO-nun Qara dənizdə daimi və güclü dəniz qüvvəsi yerləşdirməsinin qarşısını aldığından, Moskva Montrö Konvensiyasına dair mümkün dəyişiklikləri xüsusi həssaslıqla qiymətləndirir.

Türk Boğazlarının statusu Rusiya üçün yalnız hüquqi deyil, həm də geosiyasi təhlükəsizlik məsələsidir. NATO ilə ehtimal olunan qarşıdurma halında Türkiyənin müttəfiqləri ilə birgə hərəkət edəcəyi ssenarisi Moskvanın boğazlar üzərində hazırkı üstünlüklərini itirməsi ilə nəticələnə bilər. Bu amil Rusiyanın Türkiyənin NATO üzvlüyünə dair narahatlığının əsasını təşkil edir [4, s.594].

Türkiyə-Rusiya münasibətləri həmçinin Moskvanın çoxqütblü dünya nizamına dair konsepsiyasının mühüm elementlərindən biri kimi çıxış edir. Bu çərçivə, beynəlxalq siyasətdə Primakov Doktrinası ilə assosiasiya edilərək, Rusiyanın Qərb hegemonluğunu balanslaşdırmaq üçün Çin və digər qeyri-Qərb dövlətləri ilə əməkdaşlığı genişləndirmək niyyətini əks etdirir. Qara dəniz regionu isə bu doktrinanın tətbiq olunduğu əsas məkanlardan biridir. Moskva burada Avro-Atlantik təsirin zəiflədilməsinə, Türkiyə və Çinlə əlaqələrdə isə “dostcasına balanslaşdırma” yanaşmasına üstünlük verir [27].

Bu kontekstdə Ankara-Moskva münasibətləri qarşılıqlı maraqların, iki dövlət liderlərinin siyasi dünyagörüşünün oxşarlıqlarının və hər iki ölkədəki siyasi sistemlərin bir sıra paralel xüsusiyyətlərinin təsiri altında inkişaf edir. Bununla yanaşı, tərəflər arasında rəqabət doğuran sahələr də genişdir və bu, münasibətlərin çoxvektorlu xarakterini müəyyənləşdirir. İndiyədək tərəflər fikir ayrılıqlarını “sektorlaşdırma” yolu ilə ikitərəfli münasibətlərin ümumi məcrasından ayırmağı bacarmışlar. Lakin beynəlxalq sistemdə artan qeyri-müəyyənlik və regionda güc balansının dəyişməsi bu siyasətin gələcəkdə davam etdirilməsini çətinləşdirə bilər [24 ,s.17].

Bu mənzərənin mühüm komponentlərindən biri Türkiyənin postsovet məkanında pantürkizm ideyalarının gücləndirilməsi istiqamətində həyata keçirdiyi siyasətdir. Krımın Rusiya tərəfindən ilhaqı Ankara üçün ciddi strateji itki kimi qiymətləndirilmiş və “türk dünyası” anlayışının genişlənmə modelinə təsir etmişdir. Rusiya isə Krımı Türkiyənin təbii təsir dairəsi kimi nəzərdən keçirən bu yanaşmanı öz milli təhlükəsizliyinə potensial təhdid hesab edir. Türkiyənin Krım tatarlarının hüquqlarının müdafiəsinə dair siyasi fəallığı, “Məclis” üzvlərinə dəstək göstərməsi və Krımda protürk təşkilatların maliyyələşdirilməsi Ankaranın dəyər yönümlü siyasətinin təzahürü kimi qiymətləndirilə bilər [5,s.350-351].

Ankara uzun müddət ehtiyatlı balans siyasəti yürütməklə bir tərəfdən Rusiyanın regional hegemonluq ambisiyalarının məhdudlaşdırılmasına, digər tərəfdən isə onu təhrik etməmək üçün diqqətli davranmağa çalışmışdır. Bu yanaşma müəyyən mənada “məhdudlaşdırma strategiyası” (containment strategy) elementlərinə uyğun gəlir. Türkiyənin Ukraynanın hərbi-texnoloji potensialının artırılmasına verdiyi dəstək də Rusiyanın Qara dənizdəki üstünlüyünü balanslaşdırmaq məqsədi daşıyır [18]. Bununla yanaşı, Ankara NATO çərçivəsində Qərblə əməkdaşlığı davam etdirməklə paralel şəkildə Moskva ilə iqtisadi və enerji əlaqələrini genişləndirməyə çalışır.

Rusiya tərəfi isə bu prosesdə əks strategiya yürütmüşdür. Moskva, ilk növbədə, Türkiyənin Qara dənizdə onun hərbi-siyasi manevr imkanlarını məhdudlaşdırmasının qarşısını almağa çalışmış, eyni zamanda Ankara ilə Qərb dövlətləri arasında fikir ayrılıqlarını dərinləşdirmək siyasəti həyata keçirmişdir. Bundan başqa, Rusiya Türkiyənin regional güc kimi mövqelərinin möhkəmlənməsini ləngitmək məqsədilə müxtəlif diplomatik və informasiya vasitələrindən istifadə etmişdir [23,s.5].

Hazırkı mərhələdə Türkiyə Rusiyanın “düşmən dövlətlər” siyahısına daxil edilməyən yeganə NATO üzvüdür. Rusiya Federasiyasının 2023-cü il Xarici Siyasət Konsepsiyasında Türkiyənin NATO kontekstində deyil, “İslam dünyası ilə əlaqələr” bölməsində müsbət şəkildə təqdim olunması Moskvanın Ankaraya münasibətdə seçici və praqmatik yanaşmasını əks etdirir [8]. Bu, həm də Türkiyə-Rusiya münasibətlərinin xüsusi statusunu və ikitərəfli əlaqələrin gələcəkdə də qarşılıqlı asılılıq və rəqabət çərçivəsində inkişaf edəcəyini göstərir.

## Nəticə

Qara dəniz həm Türkiyə, həm də Rusiya üçün tarixi və geostrateji baxımdan prioritet ərazi olaraq qalır. 2008-ci il Rusiya-Gürcüstan müharibəsi, 2014-cü ildə Krımın ilhaqı və 2022-ci ildən davam edən Rusiya-Ukrayna müharibəsi regionun təhlükəsizlik arxitekturasını dəyişdirərək Ankara-Moskva münasibətlərinə birbaşa təsir göstərmişdir.

Türkiyənin Qara dəniz siyasəti balanslaşdırma strategiyasına, regional təhlükəsizliyin qorunmasına, enerji marşrutlarının şaxələndirilməsinə və Montrö Konvensiyasının ciddi tətbiqinə əsaslanır. Ankara üçün boğazlara nəzarət və regionda qeyri-littoral güclərin hərbi iştirakının məhdudlaşdırılması milli təhlükəsizliyin əsas elementləridir. Türkiyə NATO

üzvü olsa da, "hedging" strategiyası ilə siyasi muxtariyyətini qorumağa çalışır.

Rusiyanın yanaşması isə Qara dənizdə hərbi-strateji üstünlük, NATO-nun genişlənməsinə qarşı çıxış və postsovet məkanında təsir dairəsinin saxlanılması üzərində qurulur. Krımın ilhaqı, A2/AD sistemləri və donanmanın gücləndirilməsi Moskvanın bölgədə mövqelərini daha da möhkəmləndirmişdir. Türkiyə-Rusiya münasibətlərində Qara dəniz faktoru həm rəqabəti, həm də əməkdaşlığı bir arada saxlayır. Türkiyə Ukraynanı dəstəkləməklə Rusiyanın regional hegemonluğunu balanslaşdırır, eyni zamanda Moskva ilə iqtisadi və enerji əməkdaşlığını davam etdirir. Rusiya isə Türkiyəni həm NATO çərçivəsində xüsusi mövqeli tərəfdaş, həm də regional rəqib kimi görür.

Nəticə etibarilə, Qara dəniz gələcəkdə də Ankara-Moskva münasibətlərinin ən strateji və həssas istiqaməti olaraq qalacaq. Dəyişən güc balansı, NATO-nun artan fəaliyyəti və Ukrayna müharibəsinin nəticələri hər iki dövləti siyasətlərini yenidən uyğunlaşdırmağa sövq edəcək. Bununla belə, mövcud dinamika tərəflərin rəqabəti idarə olunan çərçivədə saxlayaraq praqmatik əməkdaşlığı davam etdirməyə çalışacaqlarını göstərir.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Akgül,P. Karadeniz`in Bölgesel Güvenlik Kompleksi olarak İncelenmesi // Ahi Evran Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi,-2020.-Cilt.6, Sayı 2.-ss.550-569.*

*2. Derman,G.S. Rusya Federasyonu'nun Karadeniz Bölge Politikasi ve Yeni Güç Dengeleri // İstanbul: Beta Yayınları, Karadeniz Jeopolitiği,- 2018 .- ss.147-163.*

*3. Dinçer,M. Montrö Sözleşmesi bağlamında Karadeniz`de Türkiye-Rusiya ilişkileri // Uluslararası İlişkiler ve Politika Dergisi,-2023.-cilt.3, sayı.1.-ss.50-67.*

*4. Üren, M. Avrasya'nın Jeopolitiği Bağlamında Rusya'nın Karadeniz Politikası // Karadeniz Araştırmaları,-2023.- XX/79.-ss.585-617.*

*5. Аватков,В.А.,Гудев, П.А. Геополитика российско-турецких отношений в Черноморском регионе // Вестник РУДН. Серия: Политология,-2021.-Т.23, № 3.- сс.348-363.*

*6. Жильцов,С.Политика России в Черноморском регионе: итоги и новые вызовы // Проблемы постсоветского пространства,-2019 6(2).-сс.149-164*

*7. Заседание Международного дискуссионного клуба «Валдай» // Сайт Президента России, 27 октября 2022 http://kremlin.ru/events/president/news/by-date/27.10.2022*

*8. Концепция внешней политики Российской Федерации (утверждена Президентом Российской Федерации В.В.Путиным 31 марта 2023 г.) // https://mid.ru/en/foreign_policy/fundamental_documents/1860586/?lang=ru*

*9. Курылев К.П., Пархитько Н.П., Никулин. М.А. Военно-морская сила России в Черноморском и Средиземноморском регионах // Постсоветские исследования. 2020. Т. 3. № 1.- сс.26-39 .*

*10. Указ Президента Российской Федерации от 31.07.2022 г. № 512 // «Об утверждении Морской доктрины Российской Федерации». Сайт Президента России http://www.kremlin.ru/acts/bank/48215 .*

*11. 2025 Turkiye Military Strength // GlobalFirepower https://www.globalfirepower.com/country-military-strength-detail.php? country_id=Turkey*

*12. Aydın ,M., Çelikpala,M., İşçi,O. Triangulating Russia, Turkey, and the West: Towards a New Regional Order? // Global Strategic Insight,- 15 may 2024.- No.2024/1. https://www.globacademy.org/wp-content/uploads/2024/05/ Triangulating-Russia-Turkey-and-the-West-Towards-a-New-Regional-Order.pdf*

*13. Aydın,M. Turkey's Black Sea Policies (1991–2023) and Changing Regional Security Since the Russian Invasion of Ukraine // Switzerland: Security Dynamics in the Black Sea Region,- 2024.- pp.97-110.*

*14. Aydin,M., Aydintasbas,A. Bridging the Bosphorus: How Europe and Turkey can turn tiffs into tacticsin the Black Sea // European Councıl on Foreign Relatıons , 18 March 2025 https://ecfr.eu/publication/bridging-the-bosphorus-how-europe-and-turkey-can-turn-tiffs-into-tactics-in-the-black-sea/*

*15. Çelikpala,M., Erşen,E. Turkey's Black Sea Predicament: Challenging or Accommodating Russia? // Perceptions, -2018.- Vol. 23, Issue 2. - pp.72-92 .*

*16. Coffey,L. , Kasapoğlu,C. A New Black Sea Strategy for a New Black Sea Reality // Washington: Hudson Institute,-2023,- 15p.*

*17. Colıbasanu,A. Turkey`s evolving geopolitical strategy in The Black Sea // Philadelphia: Foreign Policy Research Institute,-2024,-34 p*

*18. Connolly, R. Russia's relations with Turkey will face challenges // Oxford Analytica, February 6, 2025 https://www.oxan.com/insights/russias-relations-with-turkey-will-face-challenges/*

*19. Coşkun,A. The shifting balance of power in the Black Sea, 14 february 2024 // https://www.gis-reportsonline.com/r/turkey-black-sea/*

*20. Drobinin, A. The Vision of a Multipolar World: The Civilizational Factor and Russia's Place in the Emerging World Order // Russia in Global Affairs,- February 20, 2023. https://mid.ru/en/foreign_policy/news/1854841/*

*21. Gorenburg,D. Russia's Interests in the Black Sea and Mediterranean // Transatlantic Leadership Network, March 2025 https://www.transatlantic.org/wp-content/uploads /2025/05/TLN-RSI-Mediterranean-Policy-Paper-Gorenburg.pdf*

*22. Gürer, C. ,Freriks, J. Deep Dive in the Black Sea: Turkey`s Role and Potential in the Region,- Aprıl 28, 2022 // https://www.marshallcenter.org/en/publications/clock-tower-security-series/deep-dive-black-sea-turkeys-role-and-potential-region/deep-dive-black-sea-turkeys-role-and-potential-region*

*23. Hamilton,D.S., Stent, A. Russia's Intentions and Actions in the Black Sea // Transatlantic Leadership Network, Final Report,-May 30,2025,- 50 p.*

*24. Hamilton,R.E., Mikulska,A. Cooperation, Competıtıon, and Compartmentazlization : Russian-Turkish relatıons and their ımplıcatıons for the West // Philadelphia : Foreign Policy Research Institute,-2021, -72p.*

*25. Hodges,B., Horrell, S., Kuz, I. Russia's Militarization of the Black Sea: Implications for the United States and NATO // Center for European Policy Analysis – CEPA. September 22, 2022 https://cepa.org/comprehensive-reports/russias-militarization-of-the-black-sea-implications-for-the-united-states-and-nato/*

*26. Isachenko,D. , Swistek, G. The Black Sea as Mare Clausum // SWP Comment 33,-2023.https://www.swpberlin.org/publications/products/comments/2023C33_BlackSea_MareClausum.pdf*

*27. Karaganov,S.A. An Age of Wars? Article Two. What Is to Be Done // Russia in Global Affairs, 22(2),-2024. https://eng.globalaffairs.ru/articles/an-age-of-wars-what-is-to-be-done/*

*28. Kelmendi,T., Kapanadze,S. Occupational therapy: Frozen conflicts, Russian aggression and EU enlargement, Policy Brief,-4 August 2025 // European Councıl on Foreıgn Relatıons https://ecfr.eu/publication/occupational-therapy-frozen-conflicts-russian-aggression-and-eu-enlargement/*

*29. Kuimova,A., Wezeman,S. Russia and Black Sea Security // SIPRI Background Paper, December 2018,-21p.*

*30. Kurç,Ç.,Egeli,S.,Mevlütoğlu,A ., Güvenç, S. Turkiye's Defence Industry: Which Way Forward? // IISS,-November 2024*

*31. Latsabidze, A. The Strategic Importance of the Caspian and Black Sea Regions for Europe's Energy Security, August 14,2025 // The Strategic Importance of the Caspian and Black Sea Regions for Europe's Energy Security*

*32. Neset,S., Aydın,M., Balta,E. ve d. Turkey as a regional security actor in the Black Sea, the Mediterranean, and the Levant Region // CMI Report, number 2,-june 2021.- 64 p.*

*33. Rumer, Eugene. The Primakov (Not Gerasimov) Doctrine in Action, June 5,2019 // https://carnegieendowment.org/research/2019/06/the-primakov-not-gerasimov-doctrine-in-action?lang=en*

*34. Sabanadze,N., Dalay,G. Understanding Russia's Black Sea strategy:How to strengthen Europe and NATO's approach to the region. London: Chatham House, Royal Institute of International Affairs,-2025.- 53 p.*

*35. Stronski,P. What Is Russia Doing in the Black Sea? // Carnegie Endowment for International Peace,-may 20, 2021 https://carnegieendowment.org/posts/ 2021/05/what-is-russia-doing-in-the-black-sea?lang=en*

*36. Sukhankin ,S. Crimea: The Expanding Military Capabilities of Russia's Area Denial Zone in the Black Sea // Eurasia Daily Monitor. - April 27, 2021. Vol. 18. Issue 67 https://jamestown.org/program/crimea-the-expanding-military-capabilities-of-russias-area-denial-zone-in-the-black-sea/*

*37. Turkish Ministry of National Defence (MND), Defense White Paper 2000. Ankara: MND ,- 2000 // https://www.files.ethz.ch/isn/154907/Turkey_2000eng.pdf*

*38. Wölfer, K. The Black Sea and Turkey in focus , 20 aprıl 2022 // https://www.gisreportsonline.com/r/black-sea/*

## Фактор Чёрного моря в турецко-российских отношениях: меняющаяся динамика между соперничеством и партнёрством

**Гюнай Гулмохаммед Умарова**
***Докторант кафедры гуманитарных и социальных наук Азербайджанского Университета Туризма и Менеджмента***

**РЕЗЮМЕ**

В статье проводится сравнительный анализ конкурентных и кооперативных динамик в турецко-российских отношениях, формируемых фактором Чёрного моря, а также геостратегических подходов обеих государств к данному региону. Политика Турции в Чёрном море формируется в рамках концепций «Стратегическая глубина» и «Голубая родина» и сосредоточена на сохранении контроля над проливами, обеспечении региональной стабильности, укреплении энергетической безопасности и поддержке многосторонних механизмов безопасности. Анкара рассматривает Конвенцию Монтрё как ключевую опору регионального баланса и инструмент проведения независимой дипломатии.

Россия, в свою очередь, воспринимает Чёрное море как зону своего исторического влияния и важное пространство геополитического противостояния с Западом. После аннексии Крыма в 2014 году Москва существенно усилила свои военно-политические позиции в регионе посредством расширения возможностей A2/AD (anti-access/area denial), модернизации Черноморского флота и активного применения инструментов гибридной войны.

Несмотря на сохранение статуса стратегических соперников в условиях аннексии Крыма и продолжающегося конфликта на Украине, взаимозависимость, возможности секторального сотрудничества и прагматичные стратегии балансирования способствуют относительной устойчивости двусторонних отношений между Турцией и Россией.

**Ключевые слова:** *Чёрное море, Турция, Россия, соперничество, сотрудничество.*

## The Black Sea Factor in Turkish-Russian Relations: Evolving Dynamics Between Competition and Partnership

**Gunay Gulmohammed Umarova**
***Doctoral student of the Department of Humanities and Social Sciences Azerbaijan University of Tourism and Management***

**SUMMARY**

The article provides a comparative analysis of the competitive and cooperative dynamics in Turkish-Russian relations shaped by the Black Sea factor, as well as the geostrategic approaches of both states toward the region. Turkey's Black Sea policy is formulated within the frameworks of the "Strategic Depth" and "Blue Homeland" doctrines and focuses on maintaining control over the straits, ensuring regional stability, strengthening energy security, and supporting multilateral security mechanisms. Ankara views the Montreux Convention as a fundamental pillar of regional balance and an essential instrument of its independent diplomacy.

Russia, by contrast, perceives the Black Sea as a sphere of historical influence and a critical arena of geopolitical confrontation with the West. Following the annexation of Crimea in 2014, Moscow significantly reinforced its military and political posture in the region through the expansion of A2/AD (anti-access/area denial) capabilities, the modernization of the Black Sea Fleet, and the extensive use of hybrid warfare instruments.

Despite maintaining their status as strategic rivals amid the annexation of Crimea and the ongoing war in Ukraine, mutual interdependence, opportunities for sectoral cooperation, and pragmatic balancing strategies contribute to the relative resilience of Turkish–Russian relations.

**Keywords:** *Black Sea, Turkey, Russia, competition, cooperation.*

*Rəyçi: Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Cənnətxan Eyvazov*
*Məqalə redaksiyaya daxil olub: 20.03.2026*
*Çapa qəbul olunub: 29.04.2026*

*The date of the admission of the article to the editorial office: 20.03.2026*
*Accepted for publication: 29.04.2026*